# Vətəndaş cəmiyyətinin formalaşmasında prokurorluq orqanlarının rolu

**Hüquq ictimaiyyəti, eləcə də prokurorluq orqanlarının əməkdaşları böyük fərəh hissi ilə Azərbaycan Prokurorluq orqanlarının yaranmasının 100 illik yubileyini qeyd etməyə hazırlaşır.**

**Azərbaycan Respublikasının Prokurorluq orqanlarının cəmiyyətdə yüksək ictimai etimad qazanması və dövlətçiliyin sadiq keşikçisinə çevrilməsi ulu öndər Heydər Əliyevin rəhbərliyi altında aparılmış mütərəqqi hüquqi islahatların nəticəsidir. Böyük strateqin respublikada qanunçuluğun bərpası, insan və vətəndaş hüquq və azadlıqlarının təminatı, ədalət mühakiməsində dövlət ittihamının daha prinsipial şəkildə həyata keçirilməsi istiqamətindəki mühüm addımlarından biri də prokurorluq sistemində dövrün tələblərindən irəli gələn liberal islahatların aparılması olmuşdur.**

Azərbaycan xalqının təkidli xahişi ilə 1993-cü ilin iyun ayında hakimiyyətə qayıdan Heydər Əliyev müstəqil dövlətçiliyimizi və suverenliyimizi məhv olmaq təhlükəsindən xilas etdi. Ulu öndər zəngin dövlətçilik təcrübəsindən və bacarığından istifadə edərək milli dövlətçiliyimizin möhkəmləndirilməsi istiqamətində köklü islahatlar həyata keçirdi. Məhz Heydər Əliyevin böyük qayıdışından sonra zamanın tələblərinə uyğun genişmiqyaslı hüquqi islahatlar aparıldı və beynəlxalq təcrübəyə əsaslanan qanunvericilik sistemi formalaşdırıldı.

Uğurlarımızın əsasında məhz dünya şöhrətli siyasətçi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin işləyib hazırladığı və mərhələ-mərhələ həyata keçirdiyi müdrik siyasi kurs, strateji proqramlar, konsepsiyalar və islahatlar dayanır. Alternativi olmayan bu siyasi kurs Azərbaycanı çox qısa zaman kəsiyində böhrandan qurtularaq dinamik inkişaf yoluna çıxmasına səbəb olub. Müasir Azərbaycan məhz bu dahi şəxsiyyətin sayəsində qurulub və indiki yüksək inkişaf səviyyəsinə çatmışdır. Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətində həm də demokratik-hüquqi islahatların banisidir. Azərbaycan prokurorluğunun dünya standartlarına uyğun, demokratik cəmiyyətdə özünəməxsus yeri olan və müasir tələblərə cavab verən orqan kimi formalaşması, dövlət idarəetməsində mühüm rola malik olması da ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Tarixə nəzər saldıqda görürük ki, 100 illiyini qeyd etməyə hazırlaşdığımız Azərbaycan milli prokurorluğunun əsası ötən əsrin əvvəllərində Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin təşəkkül tapması ilə birbaşa bağlıdır. Azərbaycanın ilk prokurorluq orqanı Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində fəaliyyətə başlamışdır. Bu tarixin rəsmiləşməsi, hər il 1 oktyabrın Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı kimi qeyd olunması da məhz ulu öndər Heydər Əliyevin xidmətidir. Ümummilli liderin 17 iyul 1998-ci il tarixli sərəncamına əsasən peşə bayramı gününün təsis edilməsi prokurorluq orqanlarına dövlət qayğısının ifadəsi olmaqla yanaşı, prokurorluq işçilərinin fəaliyyətinə yüksək dəyər verilməsinin təzahürüdür.

1991-ci ildə dövlət müstəqilliyi yenidən bərpa edildikdən sonra milli prokurorluq yenidən təşkil edilib. Çünki Azərbaycan müstəqillik əldə etdikdən sonra sosialist ictimai-iqtisadi formasiyadan yeni formasiyaya keçid belə müstəsna səlahiyyətlərə malik ali nəzarətedici orqanın funksiyalarına yenidən baxılmasını və onun fəaliyyət dairəsinin əhatəsinin yenidən baxılmasını, müəyyənləşdirilməsini tələb edirdi. Bir məsələni xüsusi vurğulayım ki, ulu öndərin siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycan qabaqcıl sivilizasiyaya inteqrasiya yolunda, müasir, yeni dövlətçiliyin inkişafının üç təməl prinsipi əsas istiqamətlər kimi seçildi: "demokratiya, siyasi plüralizm və bazar iqtisadiyyatı".

1991-ci il oktyabrın 18-dən etibarən Azərbaycan Respublikası SSRİ-nin tərkibindən çıxaraq müstəqil dövlət kimi beynəlxalq birliyin tamhüquqlu üzvlərindən birinə çevrildi. Belə bir dövrdə digər dövlət təsisatları kimi, Azərbaycan Prokurorluğu da müstəqil dövlət qurumu kimi öz fəaliyyətini yeni dövrün tələblərinə uyğun formalaşdırmalı idi. Belə ki, prokurorluğun funksiyaları, hüquq və vəzifələri keyfiyyətcə yeniləşməli, o, fəaliyyətini demokratik cəmiyyət, siyasi plüralizm və bazar iqtisadiyyatına əsaslanan yeni cəmiyyətin tələbatı ilə uzlaşdırmağa məcbur idi. Belə prinsiplər dövlət hakimiyyətinin daha mütərəqqi sayılan və əsrlərin sınağından çıxmış, "hakimiyyət bölgüsü" prinsipi əsasında: qanunverici, icra və məhkəmə hakimiyyəti qollarına ayrılmasını, onların bir-birinə effektiv nəzarətini qaçılmaz edir, prokurorluğun əvvəlki "ümumi nəzarət" adlanan çox geniş, fövqəladə sayılacaq səlahiyyətləri ehtiva edən funksiyasının qüvvədə qalmasına ehtiyac aradan qaldırdı. Ona görə bu istiqamətdə çoxsaylı və düşünülmüş institusional və funksional islahatların aparılması zərurəti yaranmışdı.

Beləliklə, prokurorluğun əvvəllər malik olduğu bütün fiziki və hüquqi şəxslərə, müəssisə, idarə və təşkilatlara, dövlət və ictimai orqanlara və onların rəhbərlərinə — bir sözlə, hamıya nəzarəti özündə ehtiva edən "ümumi nəzarət" funksiyalarından imtina edilərək, qabaqcıl beynəlxalq standartlara və müasir tələblərə cavab verən, hüquq sisteminin inkişafında xüsusi rol oynayan, hüquq-mühafizə orqanları içərisində sanballı və nüfuzu ilə seçilən, mühüm, çevik, modern dövlət təsisatına çevrilməsi ümummilli lider Heydər Əliyev və onun siyasi kursunun layiqli davamçısı, praqmatik dövlət başçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən ardıcıl və məqsədyönlü islahatlar nəticəsində mümkün olmuşdur.

Hələ böyük öndərin şəxsi təşəbbüsü və rəhbərliyi ilə hazırlanmış ilk müstəqil Konstitusiyamız 1995-ci il noyabrın 12-də ümumxalq (referendum) səsverməsi ilə qəbul olunmasından sonra ölkəmizdə hüquqi islahatların yeni mərhələsi başlamış, dövrün tələblərinə cavab verən qanunvericilik aktları hazırlanaraq qəbul olunmuşdur. Əsas Qanunumuz hakimiyyətin və dövlətin, idarəetmənin əsaslarını formalaşdıraraq müstəqil respublikamızda hüquq sisteminin bünövrəsini yaratmış, qanunvericilik sisteminin əsasını təşkil etmişdir. Xüsusi vurğulamaq lazımdır ki, Milli Konstitusiyamızda prokurorluğun fəaliyyətinə bir maddə həsr edilmişdir. Burada onun yeri məhkəmə hakimiyyəti sistemində müəyyənləşdirilmiş, statusu, təşkili, fəaliyyət prinsipləri, səlahiyyətləri və vəzifələri dəqiqləşdirilmişdir. Əsas Qanunda prokurorluğun statusu məhz "Məhkəmə hakimiyyəti" bölməsində verilməklə, onun hakimiyyətin 3-cü qolu olan məhkəmə hakimiyyətinin bir hissəsi olması təsbit edildi. Bununla da, prokurorluq nəzarətedici orqandan cinayət mühakimə prosesinin ilkin mərhələsini, yeni cinayət işləri üzrə ibtidai istintaq həyata keçirən, bütün təhqiqat və ibtidai istintaq orqanlarının fəaliyyətinə prosessual rəhbərlik edən həmin orqanların habelə, əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunla nəzərdə tutulmuş hallarda və qaydada qanunların eyni cür və dürüst tətbiqinə və icrasına nəzarət edir, məhkəmədə dövlət ittihamını müdafiə edir, mülki iddia qaldıran, cəzaların icrasında iştirak edən və qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirən bir hüquq-mühafizə orqanı kimi keyfiyyətcə yeni ədliyyə qurumuna çevrildi. Prokurorluğun əvvəlki statusu ölkənin gələcək inkişafı, yeni sosial-iqtisadi, ictimai-siyasi münasibətlərlə və beynəlxalq standartlarla uzlaşmadığından ümummilli lider Heydər Əliyevin dövlət quruculuğu konsepsiyasına uyğun olaraq bu sistemdə köklü islahatlara başlanmışdır.

Mövcudluğu bir çox dövlətlərdə qədim dövrlərdən məlum olan məhkəmə orqanlarından fərqli olaraq, prokurorluq müstəqil institut kimi xeyli sonralar yaranıb. Müstəqil Azərbaycan dövlətində prokurorluq orqanlarının tarixi Azərbaycan Xalq Cümhuriyyətinin yaranması günündən sonra başlayıb. 1918-ci il noyabr ayının 18-də Nazirlər Şurası tərəfindən "Azərbaycan Məhkəmə Palatası haqqında Əsasnamə" təsdiq edilib.

F.Xoyski, X.Xasməmmədov, A.Safikürdski, T.Makinski Azərbaycan Xalq Cümhuriyyətinin ədliyyə nazirləri, eyni zamanda, baş prokurorları olub. Olduqca mürəkkəb və ağır şəraitdə fəaliyyət göstərən Azərbaycan Xalq Cümhuriyyətinin Məhkəmə palatasında, Bakı və Gəncə dairə məhkəmələrinin tərkibində olan prokurorluq orqanları öz səlahiyyətləri imkanında böyük işlər görüb.

1920-ci ilin aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyəti süquta yetirildikdən və Azərbaycan Sovet Sosialist Respublikası elan edildikdən sonra dövlət orqanları ilə yanaşı, prokurorluq və istintaq orqanları da ləğv edildi. Bu Azərbaycan İnqilab Komitəsinin 12 may 1920-ci il tarixli "Xalq məhkəməsi haqqında" dekreti ilə həyata keçirildi.

Bu dövrdə bütün hakimiyyət orqanlarının fəaliyyətinə nəzarət funksiyasını həyata keçirməli olan xüsusi orqanın yaradılması ehtiyacını nəzərə alaraq Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 11 iyul 1922-ci il tarixli "Azərbaycan SSR-nin dövlət prokurorluğu haqqında" Dekreti ilə Azərbaycan SSR-də sovet prokurorluğunun əsası qoyuldu.

Bakı kommunası dövründə və ondan sonrakı dövrlərdə xalq ədliyyə komissarları Ə.Qarayev, S.Çivanov, B.Vəlibəyli, B.Talıblı, H.Hacıyev, A.Sultanova, Y.Məmmədov həm də Azərbaycan SSR-nin baş prokurorları olub. 1936-cı ilin iyul ayında Azərbaycan SSR Prokurorluğu Xalq Ədliyyə Komissarlığının tərkibindən çıxarılaraq birbaşa SSRİ Prokurorluğuna tabe edilməklə müstəqil qurum kimi fəaliyyətə başlayıb.

Kommunist partiyasının mütləq hakim olduğu sovetlər rejiminin yaşadığı 70 il ərzində prokurorluq bu rejimə və partiya liderlərinə xidmət edən bir orqana çevrilib.

1955-ci il mayın 24-də "SSRİ-də prokuror nəzarəti haqqında Əsasnamə"nin qəbulu prokurorluğun inkişafında mühüm mərhələ oldu. 30 noyabr 1979-cu il tarixli "Prokurorluq haqqında" SSRİ qanunu qəbul ediləndək prokurorluq orqanları bu əsasnaməyə uyğun fəaliyyət göstərib.

1991-ci ildə Azərbaycan öz müstəqilliyini yenidən bərpa etdikdən sonra respublikamız yeni dövrə qədəm qoyub. Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonrakı illərdə Azərbaycan Prokurorluğu sinfi mənafelərə xidmət edən orqandan qanunun aliliyinin, insan hüquq və azadlıqlarının təmin olunmasına, cinayətkarlığa mübarizəyə, qanunçuluğun və hüquq qaydasının qorunmasına xidmət edən orqana çevrilməklə sivil və demokratik inkişaf yolu keçib. Bu dövr ərzində qəbul olunan çoxsaylı qanun və məcəllələr, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyası, "Məhkəmələr və hakimlər haqqında", "Konstitusiya məhkəməsi haqqında", "Prokurorluq haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanunlar, Cinayət, Cinayət-Prosessual, Cəzaların icrası, Mülki, Mülki-Prosessual, İnzibati xətalar məcəllələri və bir sıra mühüm normativ-hüquqi aktlar bütövlükdə demokratik cəmiyyətdə prokurorluğun yeri və rolunu müəyyən edib.

Ümummilli lider ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra digər sahələrdə olduğu kimi, prokurorluq orqanlarının işinin təmin edilməsi, fəaliyyətinin təkmilləşdirilməsi əməkdaşlarının sosial vəziyyətinin yaxşılaşdırılması məsələlərinə həmişə xüsusi diqqət göstərmişdir. Milli prokurorluq orqanlarının tarixinin 1918-ci ildən başlanmasına baxmayaraq, idarətmənin digər sahələrində mövcud olsa da, prokurorluq işçilərinin peşə bayramı uzun illər ərzində qeyd edilməmişdir. Bununla bağlı təşəbbüsün məhz böyük öndər tərəfindən irəli sürülməsi Heydər Əliyevin bu sahəyə göstərdiyi diqqətin bariz nümunəsidir. Belə ki, ulu öndərin 17 iyul 1998-ci il tarixli sərəncamına əsasən hər il oktyabrın 1-i Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı kimi təsis edilmişdir.

Vurğulamaq lazımdır ki, Azərbaycan ikinci dəfə müstəqillik əldə etdikdən sonra cəmiyyətdə baş verən köklü dəyişikliklər, bütün sahələrdə beynəlxalq standartlara uyğunlaşma tələbatı prosesləri çərçivəsində bu proseslərə adekvat olaraq prokurorluğa yeni səlahiyyətlər verilməsi, səlahiyyətlərinin genişləndirilməsi ilə bağlı zəruri tələbatdan doğan mühüm addımlar atılmışdır.

2002-ci il sentyabrın 19-da qüvvəyə minmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" referendum aktına əsasən prokurorluğa həm də qanunvericilik təşəbbüsü hüququ verildi. Bu hüquq prokurorluğun hüquq sistemindəki əhəmiyyətini bir qədər də artırdı. Sonrakı illərdə Konstitusiyaya olunan dəyişikliklərdə də prokurorluğun mövqeyi gücləndirildi, həmçinin insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması sahəsində vəziyyət yaxşılaşdırıldı ki, bu da prokurorluğun mənafeyinə xidmət edən yenilik oldu.

"Azərbaycan Respublikası prokurorluq orqanları işçilərinin maddi və sosial təminatı haqqında" 8 oktyabr 2002-ci il tarixli sərəncamla keçid dövrünün obyektiv çətinliklərinin mövcud olduğu bir şəraitdə prokurorluq işçilərinin maddi və sosial təminatı beynəlxalq standartlar səviyyəsinə qaldırılmışdır.

Ümumbəşəri bəla olan rüşvətxorluğa və korrupsiyaya qarşı kompleks tədbirlərin həyata keçirilməsi, bu neqativ halın ölkəmizdə aradan qaldırılması dövlətimizin başçısının xüsusilə diqqət mərkəzindədir. Dövlət başçısının "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə "2004-cü il 3 mart tarixli sərəncamı ilə korrupsiya cinayətləri üzrə ixtisaslaşmış dövlət antikorrupsiya orqanının - Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin Azərbaycan Respublikasının Baş prokuroru yanında yaradılması prokurorluğa olan inam və etimadın təzahürüdür. Dövlət başçısının bu sərəncamı korrupsiyaya qarşı mübarizənin aparılmasına Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin ən önəmli istiqaməti kimi müəyyən edilməsini şərtləndirməklə bu qəbildən olan cinayətlərə qarşı səmərəli mübarizənin aparılmasına zəmin yaratmışdır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq korrupsiyaya qarşı mübarizə işinin təşkilində prokurorluq orqanlarının məsuliyyətinin daha da artırılması, ixtisaslaşmış cinayət tətbiqi kimi Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin fəaliyyətinin daha da təkmilləşdirilməsi işçilərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində dövlət səviyyəsində mütəmadi tədbirlərin həyata keçirilməsi yüksək etimadın təzahürü kimi dəyərləndirilməlidir.

2009 və 2016-cı illərdə Konstitusiyaya edilən əlavə və dəyişiklikdə vacib dəyişikliklərdən biri kimi, hər bir kəsə pozulan hüquq və azadlıqlarının bərpası məqsədilə Konstitusiya Məhkəməsinə fərdi şəkildə müraciət etmək hüququnun verilməsidir.

Prokurorluq orqanları cinayətkarlığın bütün forma və təzahürlərinə qarşı mübarizədə prinsipial mövqe tutmaqla, vətəndaşların azad və təhlükəsiz yaşamaq kimi fundamental hüquqlarının reallaşdırılması istiqamətində bütün zəruri tədbirləri uğurla davam etdirir. Xüsusilə, bir sıra dövlət çevrilişi cəhdlərinin və digər ağır cinayətlərin qarşısının alınmasında, cinayətkarların məsuliyyətə cəlb olunaraq layiqli cəzalarına çatmasında digər hüquq-mühafizə orqanları ilə yanaşı, prokurorluq orqanlarının müstəsna xidmətləri var.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"nın qəbul edilməsi də prokurorluğun inkişafında, bu təşkilatın hüquqi müdafiənin yaxşılaşdırılmasında imkanlarının genişləndirdi. Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində prokurorluğun fəaliyyətinin bütün sahələrində təkmilləşməyə müvəffəq olunub. Belə ki, Azərbaycan Prokurorluğunun tarixində yeni təkmilləşmə və inkişaf, hərtərəfli müasirləşdirmə dövrünün əsasını qoyan Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi hüquqi sistemin inkişafı prosesində prokurorluğun rolunun artırılması, cinayətkarlığa qarşı mübarizə və istintaq aparılmasında digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsi, prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə olunması, mərkəzləşdirilmiş informasiya-kommunikasiya sisteminin yaradılması dövlət ittihamının müdafiəsində peşəkarlığın yüksəldilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, habelə prokurorluq işçilərinin sosial müdafiəsinin genişləndirilməsi və sairlər nəzərdə tutulmuşdur.

Proqrama uyğun olaraq prokurorluqda bir sıra islahatlar da həyata keçirilib. Ağır cinayətlərin istintaq edilməsində prokuror-kriminalistlərin rolunun artırılması, fəaliyyətlərinin müstəqil formada həyata keçirilməsinin təmin edilməsi üçün Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsi və Bakı şəhər prokurorluğunun İstintaq idarəsinin tərkibində Kriminalistika şöbələri yaradılıb.

Qeyd edilən tədbirlər, islahatlar prokurorluğun insanların hüquq və azadlıqlarının müdafiəsində əhəmiyyətini xeyli dərəcədə yaxşılaşdırıb.

Azərbaycanda həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluq orqanları ilə də bağlı bəzi hüquqi sənədlər qəbul olunub. O cümlədən, prokurorluq orqanlarında qulluq keçmə haqqında, prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında, prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim forması haqqında, prokurorluğun rəsmi emblemi haqqında və digər qanunvericilik aktları qəbul edilib. Bu hüquqi sənədlərin qəbul edilməsi prokurorluğun fəaliyyətinin hüquqi tənzimlənmə sisteminin təkmilləşdirilməsinə və müasir dövrün tələbinə uyğunlaşdırılmasına şərait yaratdı.

Dövlət başçısı tərəfindən prokurorluq orqanlarına diqqət, qayğı və dəstək bu gün də davam edir. Məhz bu qayğıya cavab olaraq prokurorluq işçiləri də üzərlərinə düşən məsuliyyəti, möhtərəm Prezidentin yüksək etimadını dövlətçilik ideyalarına sədaqətlə, xidməti vəzifələrinin icrasına daim vicdanlı münasibət bəsləməklə doğrultmağa çalışırlar.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə bütün sahələrdə, o cümlədən inzibati orqanların fəaliyyətində geniş islahatlar aparılır. Dünyanın inkişaf etmiş ölkələrinin ən mütərəqqi təcrübəsi öyrənilir, inzibati orqanların işinə tətbiq olunur. Prokurorluq orqanlarının əməkdaşları qarşıdan gələn əlamətdar günü—Azərbaycan Respublikası Prokurorluğunun 100 illik yubileyini əldə etdikləri zəngin təcrübə, insan hüquq və azadlıqlarının qorunmasında qazanmış olduqları nailiyyətlərlə qarşılayırlar.

**Vüqar ƏLİYEV,**
**Nərimanov rayon prokuroru,**
**baş ədliyyə müşaviri.**